**AZƏRBAYCAN RESPUBLİKASI**
**QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ**
**DÖVLƏT KOMİTƏSİ**
**BEYNƏLXALQ ƏLAQƏLƏR, İNFORMASİYA VƏ MƏTBUAT**
**XİDMƏTİ DEPARTAMENTİ**

**№** 03 **«**08**»** iyun **2017-ci il**

**“Sinam” Məhdud məsuliyyətli**
**Cəmiyyətinin direktoru cənab**
**Əbülfət Rəhimova**

**Departamentdə tətbiq olunan**
**“SERP” proqram təminatına dair**

## RƏY MƏKTUBU

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Beynəlxalq Əlaqələr,İnformasiya və Mətbuat Xidməti Departamentində “SEEP” proqramı (müəssisə resurslarının idarə edilməsi sistemi) uğurla tətbiq edilmişdir.Departamentin bütün kadr və maliyyə-mühasibatlıq işi yeni sistemin tətbiq olunmasından sonra avtomatlaşmış bazada qurulmuş və tam elektron formaya keçilmişdir.

Sistemin tətbiqi ilə Kadr və Mühasibat uçotu işinin təşkili və idarə edilməsi operativləşmiş, sənədlər üzrə informasiyaların sistemə daxil edilməsi, həmçinin işçilərin əmək haqqılarının və məzuniyyətlərinin dəqiq hesablanması, rüblük və illik hesabatların təqdim olunması daha asan və vaxtında yerinə yetirilmişdir..

Tətbiq olunan yeni sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar planına uyğun qurulmuşdur. Sistemin üstün cəhətlərindən biri də hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin sistemdə operativ şəkildə əks etdirilməsidir.

Bu işin təşkilinə görə SİNAM şirkətinin rəhbərliyinə minnətdarlığımızı bildiririk və sistemdən istifadə edən təşkilat olaraq sizinlə işbirliyimizin uzunmüddətli olmasını arzu edirik.

**Baş mühasib:** **T.Zeynalov**